«NEXT AUDİT-KONSALTİNQ» MMC

Ünvan: AZ1012, Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal 2, ev 5, m.40 Əlaqə : (+944 50) 348 15 46 , 647 73 38

**NAK-R-№ 015** **06 iyul 2017-ci il**

**Müstəqil Auditor Hesabatı**
**«Kənan İnşaat və Ticarət» MMC -nin təsisçilərinə,**
**Bakı şəhəri Nəsimi rayonu,Bül-Bül prospekti. ev 65C**
**Bakı -Azərbaycan Respublikası.**

Biz «Kənan İnşaat və Ticarət» MMC -nin 31 Dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditni aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 Dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi audit standartlarına(BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın «Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti» bölməsində təsvi edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik.Biz hesab edirik ki,əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərim məsuliyyəti.**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasb alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzliq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyətinə əlavə təsviri Cəmiyyətin internet səhifəsində yerləşir. Bu təsvir auditor hesabatının tərkib hissəsidir.

-----------------------------------
**Bəhlul Həsənov**
**Direktor (auditor)**

**Bakı şəhəri, Yasamal rayonu,**
**Yeni Yasamal 2, ev 5, mənzil 40**
**06 iyul 2017-ci il**